BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2022*

## HÜQUQ

**UOT 343.1**

# ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQUNA FƏLSƏFİ-HÜQUQİ BAXIŞ

**F.M.ABBASOVA**
***Bakı Dövlət Universiteti***
***firuza.abbasova@gmail.com***

*Məqalədə ədalətli məhkəmə araşdırması hüququna təkcə hüquqi kontekstdə deyil, həm də fəlsəfi bir kontekstdə yanaşılmışdır. Müəllif tərəfindən, hər şeydən əvvəl, ədalət kateqoriyasının mahiyyəti açıqlanmış və daha sonra bu kateqoriyanın cinayət mühakimə icraatına münasibətdə necə təzahür olunması məsələlərinə diqqət yetirilmişdir. Toxunulan əsas məsələlərdən biri ondan ibarətdir ki, cinayət mühakimə icraatında maddi və prosessual ədalətin fərqləndirilməsi mümkündür. Məqalədə ədalətli məhkəmə araşdırması hüququnun kompleks xarakterli hüquq olması diqqətə çatdırılmışdır. Bu tezisdən çıxış etməklə, məqalədə ədalətli məhkəmə araşdırması hüququnun tərkibinə daxil olan bütün elemenlər sadalanmışdır.*

**Açar sözlər:** cinayət prosesi, hüquq, fəlsəfə, ədalət ideyası, yanaşmalar.

Ədalətli məhkəmə araşdırması hüququ, ilk növbədə, ədalət anlayışı ilə bağlı olduğu üçün, bu hüququn mahiyyətini ədalət kateqoriyasının mahiyyətinə diqqət yetirmədən dərk etmək mümkün deyil. Ədalət hər bir insanın təməl ehtiyaclarından, arzu etdiyi hal və vəziyyətdən, dəyər verdiyi ali qeyri-maddi nemətlərdən biridir və bəlkə də ən əsasıdır. Hər bir kəs istər cəmiyyətdə, istər peşə fəaliyyətində, istər adi məişət həyatında ona qarşı ədalətli bir davranışın sərgilənməsini, ona qarşı ədalətli bir mövqenin tutulmasını və ona qarşı ədalətli münasibətin göstərilməsini istəyir. Doğrudur, insanlar heç də həmişə ədaləti tapa bilmirlər. Sıradan bir şəxsin həyat hekayəsini dinlədikdə, böyük bir ehtimal vardır ki, o, müxtəlif zamanlarda, müxtəlif situasiyalarda ədalətsizliklə üzləşməsindən bəhs edəcəkdir. Bu, insanların ədalət axtarışının sonsuz, fasiləsiz olmasının da bir dəlilidir. Ədalət axtarışının sahələri də qeyri-məhduddur və bunun nəticəsində hüququn və fəlsəfənin tarixində ədalətli cəmiyyət, ədalətli qanunlar, ədalətli idarəetmə, ədalətli hökmdar və s. bu kimi anlayışlar haqqında da zəngin tədqiqatlar aparılmış, mütəfəkkirlər bu anlayışlar ərtafında geniş polemikalar aparmışlar [4, 24; 5, 11; 9, 66-76].

Ədalət, ilk növbədə, bir gözləntidir. İnsanlar daha çox özlərinə qarşı

ədaləti digər insanlardan, onların idarəedicilərindən, bütövlükdə cəmiyyətdən, eləcə də dövlətdən gözləyirlər. Nisbətən az qisim insan isə özündə ədalət hissini inkişaf etdirə bilir və özünə qarşı ədalətli münasibət gözlədiyi qədər, özü də digərlərinə qarşı ədalətli olmağa çalışır. Bununla belə, ədalət daha çox şəxsiyyətin dövlətdən və cəmiyyətdən görmək istədiyi münasibəti xarakterizə edir. Heç kəs özünə qarşı ədalətsiz bir şəkildə davranılmasını istəmir və ədalətsizliklə üzləşdikdə, məsələn, sosial ədalətin pozulmasına səbəb olan cinayətin qurbanına çevrildikdə, şəxsiyyətin ədalətin bərqərar edilməsi üçün dövlətə üz tutur, məhz dövlətdən sosial ədalətin bərpasını gözləyir, tələb edir. Bununla belə, ədalət anlayışı istər hüquqda, istər fəlsəfədə, istər sosiologiyada kifayət qədər geniş, birmənalı şəkildə anlaşılmayan, dəqiq meyarları və hüdudları olmayan bir anlayışdır [7, 90-94].

Ədalət nədir? Bu sual antik dövrlərdən günümüzə kimi müzakirəyə açıqdır və zaman-zaman fərqli fəlsəfi cərəyanların nümayəndələri bu suala müxtəlif cavablar vermişlər. Bəziləri ədaləti hər kəsin haqqı çatan qədər nemətə, dəyərə, münasibətə nail olmasında görür. Bu yanaşmada kim nə qədər əmək sərf edərsə, o qədər qazanmalı, kim intellektual cəhətdən nə qədər kamilləşərsə, cəmiyyətdə o qədər ehtirama sahib olmalı, kim ruhunu nə qədər zənginləşdirərsə, o qədər mənəvi yüksəliş əldə etməli, eləcə də kim nə qədər günah edərsə (cinayət törədərsə), o qədər cəzaya məruz qalmalıdır və s. Digərlərinə görə, ədalət, əksinə, heç kəsin bir-birindən fərqəndirilməməsindədir, maddi nemətlərin hər kəs arasında bərabər şəkildə bölünməsində, cəmiyyətdə varlıların və yoxsulların olmamasında, hər kəsə eyni münasibətin, eyni dəyərin verilməsində, hamı üçün vəzifə tutmada, məqam sahibi olmada, dövlət idarəçiliyində iştirak etmədə eyni imkanların yaradılmasındadır və s. Başqa bir yanaşmaya görə, ədalət ilahi bir qüvvənin təbiətə bəxş etdiyi bir xassədir. Bu yanaşmada, dünyanın və insanın yaradılışında bir ədalət mövcuddur. Məsələn, əgər təbiətdə yırtıcılara güc, hücum qabiliyyəti, ov etmə bacarığı verilmişdirsə, onların şikarı ola biləcək canlılara da bu yırtıcılardan müdafiə olunmaq, həyatda qala bilmək üçün imkanlar verilmişdir, belə ki, aslanın şikarı ola biləcək ceyran iti sürətlə qaçaraq həyatını qurtara bilər, canavarın şikarı ola biləcək öküz buynuzları ilə özünü müdafiə edərək canını xilas edə bilər və s. Bu fəlsəfi baxışda təbiətdə hər şey ədalətli bir şəkildə qurulmuşdur, lakin bu ədalətli tarazlıq çox kövrəkdir və ona müdaxilə edildikdə, həmin tarazlıq bəzən bərpa edilməz şəkildə pozulur. Məsələn, müəyyən bir kontinent (qitə) üçün xarakterik olmayan, yəni təbiət tərəfindən həmin kontinentdə yaşaması nəzərdə tutulmayan bir canlının insanlar tərəfindən süni şəkildə oraya gətirilməsi bu təbii tarazlığı poza bilər. Çünki, məsələn, əgər gətirilmiş canlı ot yeyən bir canlıdırsa və onun gətirildiyi qitədə həmin canlını ovlayacaq gücdə olan digər bir yırtıcı canlı yoxdursa, bu ona səbəb olacaqdır ki, qitəyə süni şəkildə gətirilmiş ot yeyən canlının populyasiyası qeyri-adekvat bir şəkildə artacaqdır və onlar qitənin yaşıllığını durmadan qidada istifadə edəcəkdir. Bu populyasiyanın artımını stabilləşdirəcək bir qüvvənin, yəni müvafiq yırtıcı heyvanın olmaması isə ona səbəb olacaqdır

ki, qitənin yaşıllıq balansı pozulacaqdır. Bu isə, öz növbəsində, təbiətin müəyyən etdiyi ədalətin pozulmasına səbəb olacaqdır, çünki həmin yaşıllıqdan qidada istifadə etməli olan digər canlıların yem ehtiyatları qitəyə süni şəkildə gətirilmiş canlılar tərəfindən tükədiləcəkdir və nəticədə qitənin yerli canlı aləmi təbiət tərəfindən onlar üçün nəzərdə tutulmuş qida haqqından məhrum olacaqlar. Göründüyü kimi, təbiətin müəyyən etdiyi ədalət tarazlığı müdaxilə nəticəsində asanlıqla darmadağın edilə bilər. Bu fəlsəfənin maraqlı cəhəti ondan ibarətdir ki, heyvanlar aləmindən gətirilmiş bir misalda asan izah edilə bilməsinə baxmayaraq, insan cəmiyyətinə tətbiq edildiyində də həmin yanaşma özünü doğruldur. Belə ki, ədalətli bir insan cəmiyyətində hər kəs ona ayrılmış rolunu yerinə yetirməklə, birgəyaşayış qaydalarına əməl etməklə öz ahəngdar yaşamını davam etdirir: əkinçi əkinlə məşğul olur və cəmiyyəti becərilən məhsullarla təmin edir, balıqçı balıq tutur, əskər insanların məskunlaşdığı ərazini və onların həyatını qoruyur, təbib xəstələri müalicə edir və s. Belə yaşam tərzi də cəmiyyətdə müəyyən bir ədalətli balansa xidmət edir və bu tarazlığa kənar müdaxilələr (məsələn, oğurluq edilməsi, başqasının həyatına qəsd edilməsi, öz öhdəliklərinin yerinə yetirilməməsi və s.) həmin ədaləti pozur. Odur ki, ədalətli cəmiyyətdə ədalətli tarazlığın pozulmaması üçün, pozulduğu hallarda isə onun bərpa edilməsi üçün institutlar, mexanizmlər mövcud olmalıdır. Heyvanlar aləmindən gətirilmiş misalda olduğu kimi, cəmiyyətdə ədalətin qorunması üçün bu adil tarazlığı pozan ünsürlərin qarşısını ala biləcək iqtidarda olan bir güc də mövcud olmalıdır, əks halda cəzasız qalan cinayətlər getdikcə çoxalar və cinayətlər çoxaldıqca, digər insanların haqlarının pozulması halları da artar ki, nəticə etibarilə həmin cəmiyyətdə ədalət deyilən bir anlayış tamamilə məhv edilmiş olar. Başqa bir fəlsəfi baxışa görə isə mütləq ədalət insanların, ümumiyyətlə, heç bir zaman nail ola bilməyəcəkləri bir dəyərdir. İnsanlar nə qədər çalışsalar da, mütləq bir ədalətə nail ola bilməzlər, onlar yalnız konkret situsiyalarda, konkret şəxslərə münasibətdə nisbi ədalətə nail ola bilərlər. Bu nisbi ədalət insanların daha çox hissəsini məmnun edəcək dərəcədə bir ədalətdir. Məsələn, hər hansı bir cinayəti törətmiş şəxsə verilmiş cəza həm həmin şəxsin gözündə, həm də, ümumiyyətlə, ali dəyərlərin balansı baxımından mütləq ədalətə xidmət etməyə bilər: tutaq ki, oğurluq etmiş şəxsin əlinin kəsilməsi mütləq ədalət baxımından adekvat olmaya bilər, çünki insan mala qəsd etdiyi halda, cəza onun canına qəsd edir. Lakin əgər cəmiyyətdə bu cəza ədalətli hesab edilirsə, oğurluq etmiş şəxsin əlinin kəsilməsi nisbi də olsa, ədalətin bərqarar edilməsi kimi başa düşülə bilər [1, 16; 2, 63-64; 6, 16].

Qeyd edildiyi kimi, fəlsəfədə ədalət qavramı haqqında yanaşmalar çoxsaylı və rəngarəngdir, bəzən bir-birinə yaxın, bəzən bir-birindən kəskin fərqlənəndir. Biz, yuxarıda onların yalnız bir qisminə ümumiləşdirilmiş şəkildə nəzər yetirdik. Bununla belə, bütün yanaşmalarda vahid olan ideya ondan ibarətdir ki, istər nisbi olsun, istərsə mütləq olsun, istər təbii olsun, istərsə konvensional (insanların qarşılıqlı razılığa gəlməklə müəyyən etdiyi) olsun, ədalət insanların ehtiyaclarından biridir və insanlar tarix boyu ona nail olmağa çalışırlar

[10, 159-160].

Sırf ədalətli məhkəmə araşdırması hüququnun mahiyyətinə gəlincə isə qeyd edilməlidir ki, bu hüququn mahiyyəti də məhz insanların ədalət axtarışı ilə bağlıdır. Sadəcə olaraq, bu hüquq insanların geniş anlamda cəmiyyətdə və dövlət idarəçiliyində ədalət axtarışını deyil, daha dar mənada, yəni onların işinə məhz məhkəmədə baxılarkən ədalət axtarışını nəzərdə tutur. Bununla belə, ədalət ideyasının qədim olduğu qədər ədalətli mühakimə ideyası da qədimdir və hələ qədim zamanlardan insanlar mühakimə edilərkən ədalətli prosedurların axtarışında olmuşlar.

Ümumiyyətlə, mühakiməyə, yəni məhkəmənin fəaliyyətinə münasibətdə ədalət özünü iki əsas müstəvidə göstərir: məhkəmə fəaliyyətinin, mühakimənin yekun nəticəsi olan ədalət – maddi ədalət (çıxarılmış hökmün, qəbul edilmiş qərarın, təyin edilmiş cəzanın, verilmiş bəraətin, əvəzi ödənilməli olan zərərin müəyyən edilmiş həcminin və s. ədalətli olması) və mühakimənin nəticəsinə nail olmanın ədalətli yolu – prosessual ədalət (mühakimənin buna səlahiyyəti çatan məhkəmə tərəfindən həyata keçirilməsi, mühakimə zamanı çəkişən tərəflərin bərabər hüquqi imkanlara malik olması, qəbul edilən qərarların qanuni sübutlarla əsaslandırılmış olması və s.) [3, 137].

Ədalət qavramının bu iki aspekti arasındakı qarşılıqlı əlaqə də maraqlı və insanları hər zaman düşündürəndir. Belə ki, mühakimənin ədalətliliyindən bəhs edərkən iki əsas sual hər zaman insan düşüncəsini narahat edir: Görəsən ədalətsiz bir şəkildə həyata keçirilmiş mühakimə nəticəsində ədalətli qərar qəbul etmək mümkündürmü? Bəs, əksinə, mühakiməni tamamilə ədalətli şəkildə həyata keçirmiş olsaq da, yekun olaraq ədalətsiz qərarın qəbul edilməsi mümkündürmü?

Birinci sualla bağlı qeyd edilə bilər ki, hipotetik olaraq ədalətsiz bir şəkildə həyata keçirilmiş mühakimə nəticəsində ədalətli qərar qəbul etmək mümkündür. Məsələn, fərz edək ki, həqiqətdə bir insanı qətlə yetirmiş hansısa şəxs mühakimə edilir, lakin onun mühakiməsi zamanı ədalətli prosedurlar tətbiq edilmir: o, müdafiəçi ilə təmin edilmir, ondan təziq nəticəsində alınmış etiraf ifadələri hökmün əsasına qoyulur, ona qarşı tərəflə bərabər imkanlar yaradılmır və s. Mühakimənin nəticəsində həmin şəxs adam öldürməkdə təqsirli bilinir və ona bu əmələ adekvat olan cəza təyin edilir. Bu halda ədalət mövcud olurmu, yoxsa yox? Biz, əvvəlcədən, mühakimə edilən şəxsin həqiqətdə insan qətlə yetirdiyini aksiom olaraq qəbul etdiyimiz üçün, baxılan halda mühakimə edilən şəxsin yekunda adam öldürməkdə təqsirli bilinməsi və onun bu əmələ adekvat bir cəza ilə cəzalandırılması prinsipcə, ədalətin bərqərər edilməsi olur. Lakin nəzərə almaq lazımdır ki, real həyatda heç də bütün hallarda mühakimə edilən şəxsin əslində cinayət törətmiş olub-olmaması məlum olmur və mühakimənin də əsl məqsədi məhz bu məsələnin, yəni mühakimə edilən şəxsin cinayət törətmiş olub-olmamasının müəyyən edilməsidir [8, 66]. Odur ki, mühakimə edilən şəxsin təqsirli olub-olmamasını əvvəlcədən bilmək mümkün olmadığı üçün, ədalətsiz prosedurlar əsasında həyata keçirilmiş mühakimənin nəticəsinin real-

lıqla üst-üstə düşməsi (məsələn, həqiqətən cinayət törətmiş şəxsin təqsirli bilinməsi, yaxud həqiqətən təqsirsiz olan şəxsin bəraət alması) hər zaman bir təsadüf olaraq qalacaqdır. Ədalət mühakiməsinin təsadüfə əsaslanmasının isə yolverilməz olduğu mübahisəsiz olduğundan, aşkardır ki, yekun nəticənin ədalətli olacağı gümanı ilə mühakimə icraatının ədalətsiz prosedurlar əsasında həyata keçirilməsinə heç bir halda haqq qazandırmaq olmaz. Digər tərəfdən, ədalətsiz prosedurların əsas təhlükəsi ondan ibarətdir ki, onlar təqsirsiz şəxsləri özünü müdafiə etmək, hüquqlarının təminatlarından yararlanmaq, həqiqətin aşkara çıxarılmasında iştirak etmək imkanlarından məhrum etməklə onların əsassız olaraq təqsirli bilinməsinə zəmin yarada bilərlər və bu təhlükə kifayət qədər güclüdür. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, bir dövlət iki şeydən – təqsirli şəxsin cəzasız qalmasından və təqsirsiz şəxsin cəza almasından sarsıla bilər. Mustafa Kamal Atatürk də eynilə demişdir ki, ədalət mülkün (yəni dövlətin) təməlidir. Deməli, ədalətsiz prosedurlarla mühakimə nəticəsində ədalətli yekun qərarın çıxarılması hipotetik olaraq mümkün olsa da, hər zaman təsadüf və bəxt məsələsi olaraq qalacağı üçün, mühakimə icraatının ədalətli prosedurlarından imtina etmək praktiki olaraq mümkün deyildir.

İkinci suala gəlincə, bu zaman da hesab edirik ki, mühakiməni tamamilə ədalətli şəkildə həyata keçirmiş olsaq da, yekun olaraq ədalətsiz qərarın qəbul edilməsi mümkündür. Çünki mühakimənin ədalətli prosedurları ədalətli yekun nəticənin əldə edilməsi üçün mühüm bir zəmin yaratsa da, onu birmənalı olaraq şərtləndirmir. Bu, onunla əlaqədardır ki, yekun nəticənin ədalətliliyi təkcə bu nəticəyə aparan yolun ədalətli prosedurlara əsaslanmasından asılı deyildir, yekun nəticənin ədalətli olması üçün bu nəticəyə aparan yolun özünün ədalətli olması ilə yanaşı, bu nəticənin öz mahiyyəti və məzmunu da ədalətli olmalıdır. Belə ki, fərz edək ki, cinayət təqibinə məruz qalan şəxs mühakimə edilərkən ədalətli mühakimənin bütün prosedurlarına əməl edilmişdir, məsələn, o, müdafiəçi ilə təmin edilmişdir, onun işinə qanunla yaradılmış, müstəqil və qərəzsiz məhkəmə tərəfindən baxılmışdır, onun barəsində mühakimə icraatı kifayət qədər ağlabatan müddətlərdə həyata keçirilmişdir, o, özünə qarşı ifadə verməmək haqqından tam həcmdə istifadə etmişdir, müdafiə və ittiham tərəfləri arasında hüquqi imkanların bərabərliyi təmin olunmuşdur və s. Bütün bunlara rəğmən, məsələn, əgər yekunda qəbul edilmiş hökmlə təyin edilmiş cəza cinayət törətmiş şəxsin şəxsiyyətinə uyğun deyilsə, mühakimə prosedurlarının ədalətli olmasına baxmayaraq, biz, bu iş üzrə ədalətin bərqərar olmasından danışa bilmərik. Deməli, mühakimə prosedurlarının ədalətli olması yekun nəticənin ədalətli olması üçün vacib şərt olsa da, onu tam olaraq şərtləndirən amil deyildir.

Bütün deyilənlərdən belə nəticə çıxarmaq olar ki, ədalətli məhkəmə araşdırması hüququ şəxsiyyətin barəsində həyata keçirilən mühakimənin prosedur qaydalarının ədalətli olmasını nəzərdə tutur və mühakimənin yekun nəticəsinin ədalətli olması üçün mühüm zəmin rolunu oynayır, lakin yekun nəticənin ədalətli olacağını mütləq şəkildə şərtləndirmir.

Ədalətli məhkəmə araşdırması hüququnun məzmununa gəlincə, qeyd

edilməlidir ki, o, özündə konkret bir davranış imkanını (məsələn, ifadə vermək, yaxud susmaq), konkret bir təminatı (məsələn, müdafiə tərəfinin təqsirsizliyin sübut edilməsindən azad olunmasını), yaxud da konkret bir meyarı (məsələn, tərəflərin hüquqi bərabərliyə malik olmasını) nəzərdə tutan yekcins bir sadə müddəadan ibarət deyil. Tam əksinə, o, mürəkkəb quruluşa malik olan, özündə çox sayda davranış imkanı, təminatlar və meyarlar nəzərdə tutan kompleks xarakterli hüquqi müddəadır. Müasir dövrdə ədalətli məhkəmə araşdırması hüququnun məzmununa aşağıdakı hüquqlar və təminatlar aiddir: qanun əsasında yaradılmış bir məhkəmə tərəfindən mühakimə olunmaq; müstəqil bir məhkəmə tərəfindən mühakimə olunmaq; qərəzsiz bir məhkəmə tərəfindən mühakimə olunmaq; qarşı tərəflə bərabər imkanlara malik olmaqla mühakimə olunmaq; çəkişmə şəraitində mühakimə olunmaq; susma və özünü ifşa etməmək hüququ; aşkar şəraitdə mühakimə olunmaq; ağlabatan müddətlərdə mühakimə olunmaq; təqsirsizlik prezumpsiyası; cinayət təqibinə məruz qalan şəxsin minimal hüquqları; barəsində çıxarılmış qərarın əsaslandırılması.

Ədalətli məhkəmə araşdırılması hüququnun demokratik cəmiyyətdə əhəmiyyəti olduqca böyükdür. Bu hüququ bəyan və təmin etməyən bir cəmiyyətdə demokratik mühitdən və bütün digər insan haqlarının real şəkildə təmin edilməsindən bəhs etmək praktiki cəhətdən mümkün deyildir. Ədalətli məhkəmə araşdırması hüququnun lehinə ən bəsit, lakin ən inandırıcı arqument onun anti-tezisinin qəbul edilməsinin nə dərəcədə yolverilməz və dəhşətli olmasıdır. Başqa sözlə, əgər məhkəmə araşdırması (mühakimə icraatı) ədalətli olmazsa, bəs necə olmalıdır? Belə çıxır ki, ədalətsiz olmalıdır? Kim insanların ədalətsiz bir şəkildə mühakimə edildiyi cəmiyyətin üzvü olmaq istəyər? Əlbəttə ki, heç kim. Deməli, insan cəmiyyətinin özünün bir reallıq olaraq mövcudluğu üçün təməl şərtlərdən biri həmin cəmiyyətin ayrı-ayrı üzvlərinin bu toplum daxilində ədalətli mühakimənin mövcudluğuna olan inamıdır. Ədalətli məhkəmə araşdırması hüququ bütün digər insan hüquqlarının realizə edilməsi üçün zəmin yaradır desək, şübhəsiz ki, yanılmarıq. Həqiqətən, ədalətin bərqərar edilməsinə yönəlmiş mexanizmləri olmayan bir toplumda yaşamaq haqqının, mülkiyyət haqqının, azadlıq haqqının və bu kimi təməl haqların təminatlarından bəhs etmək sadəcə sadəlöhvlük olardı. Bu hüququn tanınması və təmin edilməsi cəmiyyətin hər bir üzvündə ədalətə inam, etibar yaratdığı üçün böyük əhəmiyyətə malikdir. Demokratik toplumda hər bir fərd ona arxayın olmalıdır ki, o, heç bir zaman qanundan kənar və ədalətsiz bir şəkildə təqib edilməyəcəkdir və cəzalandırılmayacaqdır. Ədalətli məhkəmə araşdırılması hüququnun real tanınması və təmin edilməsi insanlarda bu inamın yaranması üçün ən təsirli vasitədir. Bundan başqa, ədalətli məhkəmə araşdırması hüququ cinayət qurbanlarının da haqlarının təminatı baxımdan çox önəmlidir, çünki bu hüququn real təminatları gözlənilməklə həyata keçirilən mühakimə nəticəsində cinayət qurbanına zərər yetirmiş əsl təqsirkarın adil bir şəkildə ifşa edilərək məsuliyyətə, o cümlədən, cinayət qurbanına vurulmuş maddi və mənəvi məsuliyyətə cəlb edilməsi imkanları xeyli artmış olur. Demokratik cəmiyyətlərdə insanları, o cümlədən,

cinayət qurbanlarını törədilmiş cinayətə görə kiminsə cəzalandırılması deyil, məhz əsl cinayətkarın cəzalandırılması prinsipial olaraq narahat edir. Odur ki, cinayət törətməkdə ittiham olunan şəxslərin adil bir şəkildə mühakimə edilməsi, ilk baxışdan, ancaq cinayət təqibinə məruz qalmış şəxslərin maraqlarının gözlənilməsinə xidmət edirsə, əslində, daha dərindən düşündükdə, bu, cinayət qurbanları üçün də arzuedilən bir mühakimə üsuludur. Çünki ədalətli şəkildə aparılmış mühakimə nəticəsində cinayət qurbanını təhdidə məruz qoymuş əsl cinayətkarın ifşa edilməsi şansları çoxalır, bu da o deməkdir ki, adil bir mühakimə cinayət qurbanlarının da ədalət mühakiməsindən olan gözləntilərini daha səmərəli şəkildə təmin edir.

## ƏDƏBİYYAT


1. Бринчук М.М. Законы природы и справедливость. Закон космической справедливости // Астраханский вестник экологического образования. 2017. № 3 (41). с. 14-20.
2. Гагаев А.А., Гагаев П.А. Теория естественной и исторической справедливости // Казанский вестник молодых учёных. 2017. Т. 1. № 3 (3). с. 62-65.
3. Галкина Е.А. Справедливость приговора или справедливость уголовного процесса? // Вестник Самарского юридического института. - 2018. № 2 (28). - с. 133-138.
4. Исмайлов Х.Д. Идея справедливости в политико-правовых воззрениях Низами Гянджеви // Северо-Кавказский юридический вестник. - 2021. № 2. - с. 22-34.
5. Овечкин А.П. Категория справедливости в системе современного российского права // Вестник Академии права и управления. - 2019. № 1 (54). - с. 9-13.
6. Полатайко С.В., Щербаков В.П. Справедливость и благо в дискуссии либерализма и коммунитаризма // Научное мнение. - 2019. № 11. - с. 10-17.
7. Прокофьев А.В. Обстоятельства справедливости: от Дэвида Юма к Джону Ролзу // Человек. - 2021. Т. 32. № 3. - с. 88-96.
8. Рундквист А.Н. Взаимосвязь принципа справедливости с правовыми аксиомами // Юридические исследования. 2020. № 10. с. 64-78.
9. Тимохина М.И. Философское учение о справедливости и его связь с принципом справедливости в уголовном праве // Международный журнал гуманитарных и ЕСтественных наук. - 2020. № 10-4 (49). - с. 78-80.
10. Фролова О.Е. Субъективное понимание концепта справедливость // Человек: образ и сущность. - 2018. № 3 (34). - с. 154-169.


## ФИЛОСОФСКО-ПРАВОВОЙ ВЗГЛЯД НА ПРАВО НА СПРАВЕДЛИВОЕ СУДЕБНОЕ РАЗБИРАТЕЛЬСТВО


**Ф.М.АББАСОВА**


## РЕЗЮМЕ


В статье право на справедливое судебное разбирательство рассмотрено не только в правовом контексте, но и в философском. Автором, прежде всего, раскрыта сущность категории «справедливость» и далее рассмотрены вопросы корреляции данной категории с уголовным судопроизводством и проявления данной категории в уголовном процессе. На основе проведенного исследования представляется возможным разграничение материальной и процессуальной справедливости в уголовном судопроизводстве. В статье подчеркивается, что право на справедливое судебное разбирательство является комплексным по своему характеру. Исходя из данного тезиса, в статье дается перечень

всех элелементов, входящих в состав права на справедливое судебное разбирательство.

**Ключевые слова:** уголовный процесс, право, философия, идея о справедливости, подходы.

## PHILOSOPHICAL AND LEGAL VIEW OF THE RIGHT TO A FAIR TRIAL

**F.M.ABBASOVA**

### SUMMARY

The article addressed the right to a fair trial not only in a legal context, but also in a philosophical one. The author, first of all, revealed the essence of the category "justice" and further considered the issues of correlation of this category with criminal proceedings and the issues of manifestation of this category in criminal proceedings. One of the main issues under consideration is the question that in criminal proceedings it is possible to distinguish between material and procedural justice. The article emphasizes that the right to a fair trial is comprehensive in nature. Based on this test, the article lists all the elements included in the right to a fair trial.

**Key words:** criminal process, law, philosophy, idea of justice, approaches.